Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Novruz gəldi, yaz gəldi

**Novruz bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2021**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Novruz gəldi, yaz gəldi :** Novruz bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed K.Səmədzadə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. S.-31.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Giriş

***Uğur olsun gözəl bahar!***

***Səni ellər çox arzular.***

***Ayaq basdın ölkəmizə,***

***Bol-bol şənlik gətir bizə.***

**Abdulla Şaiq**

Ulu qaynaqlardan və tarixi köklərdən süzülüb gələn Novruz xalqımızın ən qədim bayramlarından biridir. Gözəl adət və ənənələri, zəngin el şənlikləri, füsunkar gözəllikləri və yaddaqalan bayram nəğmələri ilə bol olan Novruz bayramı Azərbaycanda ta qədimdən bu günə kimi hər il mart ayının 20-21-22-də daxil olmaqla təntənə və yüksək əhval-ruhiyyə ilə qeyd edilir.

Novruz Şərq xalqlarının ən qədim bayramlarındandır. Dahi N.Gəncəvi "İsgəndarnamə" əsərində zərdüştlilərin Novruz bayramını necə el şənliyi ilə keçirilməsini şərh etmiş, onu gözəl tərənnüm etmişdir.

Kökünü tarixin ilk çağlarından alan və xalq arasında böyük el bayramı, bahar bayramı adı ilə tanınmış Novruz (yeni gün) bayramı bir çox Orta Şərq xalqları və İranda olduğu kimi, azərbaycanlıların da çox əziz saydıqları, sevinc ilə ilə qarşıladıqları bayramdır. Əsrlər keçdikcə bu gözəl bayram sərhədləri aşıb, milli bayrama çevrilib, hər bir ailədə, hər bir xalq arasında cürbəcür yozulursa da, lakin, əsasən, təbiətin yenidən oyanıb canlanması, qışın sona çatması, yaranışın çiçəklənməsi və insanın fərəhlənməsi, sevinci ilə bağlıdır.

Novruz təzə gün deməkdir. İnsanlar hələ lap qədimlərdən baharın gəlişini, istilərin düşməsi ilə əlaqədar torpağın oyanmasını, meşələrin, çöllərin yaşıllığa qərq olmasını, çəmənlərin çiçəklənməsini səbirsizliklə gözləmişlər. Təbiətin oyanması insanları sevindirmiş, hər il yazın gəlişini bayram etmək adət şəklinə düşmüşdür.

Bahar bayramı mərasimləri bir-birini tamamlayan müxtəlif mərhələlərdən - mərasimlər, ayinlər, xalq dramlarından ibarətdir. Bu mərasimlər ilin son çərşənbəsinə 40 gün qalmış başlayır. Üzlərinə yumurta sarısı çəkmiş, kömürlə üz-gözlərini qaralamış, bığ-saqqal yapışdırmış aktyorlar mərasimin ilk mərhələsinə “Kosa-kosa”xalq oyunu ilə başlayırlar. Bu mərasimdə keçəl qışı, soyuğu, qarı, kosa isə yazı, təbiətin oyanışını təmsil edir. Tamaşa yazın qələbəsi ilə başa çatır. Bu mərasimin ardınca ulu babalarımız xalqın əkinə, səpinə başlaması münasibətilə “Günəşi dəvət” mərasimini icra etmişlər. Bundan sonrakı mərhələlər “Qodu-qodu”, “Səməni”, “Danatma”, “Qapı pusma” mərasimləri ilə yekunlaşdırılır.

Maraqlıdır ki, insanlar təzə ilə tamamilə təmiz daxil olmaq istəyirlər. Onlar həm zahirdən, həm də daxildən təmizlənməyə çalışırlar. Evdə hər şey təmizlənir-ev ağardılır, paltar yuyulur, yorğan-döşək havaya çıxarılır. Zahiri təmizlənmə başa çatandan sonra insanlar daxıli təmizlənməyə can atırlar. Günahsız insan yoxdu dünyada. Günahlarını bədənlərindən çıxarmaq, təmiz ruha, təmiz bədənə yiyələnmək istəyən insanlar həyətlərdə tonqallar qalayıb, üstündən yeddi dəfə atılırlar:
“Ağırlığım-uğurluğum odlara, Yazda mənlə hoppanmayan yadlara”-deyərək özlərini təmiz hesab edirdilər.

Novruz bayramının yaranma tarixi haqqında müxtəlif mülahizələr vardır. Tədqiqatçılarımızın bəziləri bu bayramın yaranmasını atəşpərəstlik dini, bəziləri isə islam dini ilə bağlayırlar. Lakin bayram günlərində keçirilən mərasimlərə

diqqət yetirdikdə məlum olur ki, bu mərasimlər, ifa olunan nəğmələr ilk insanların yarandığı dövrlə-ibtidai icma dövrü ilə səsləşir. Təbiət üzərində, vəhşi heyvanlar üzərində yavaş-yavaş qələbə çalmağa başlayan insanlar hər dəfə əldə etdikləri qələbəni müxtəlif oyunlarla, rəqslərlə ifadə etmişlər. "Səməni" mərasimi yaşıllıqla əlaqədardır. Bu mərasim həm də insanın təbiət üzərində qələbəsinin bayramıdır:

Səməni saxla, məni,
İldə göyərdərəm səni-deyib babalarımız. Çörək müqəddəs nemətdir. Bu əvəzsiz nemətin əldə olunması insanları şənləndirib, nəğmələr qoşulub adına.

Tonqalların yandırılması, insanların alov üzərindən yeddi dəfə tullanması mərasimi bayram şənliklərinin ən maraqlısıdır. Tonqal ətrafında keçirilən şənlik odun əldə edilməsi ilə bağlıdır. Odun insan həyatına daxil olması, onun vəhşi heyvanlardan, şaxtadan və soyuqdan qorunmasında bir vasitə idi. Oda sitayiş heç bir dini məna daşımır. Bu inam zəhmətkeşin həyat şəraiti ilə bağlı məsələdir. Zərdüşt dininə görə, Hörmüz od rəmzi olmuşdur. İnsanlar hər il odun şərəfinə qurbanlar kəsmiş, yeddi qapıya paylamışlar. Novruz bayramında odun üstündən tullananda bu təkərləməni oxuyarmışlar:

Ağırlığım-uğurluğum odlara.
Yazda mənlə hoppanmayan yadlara
Ağırlığım od olsun,
Odda yanan yad olsun,
Aydan arı halalam.
Sudan duru camalam,
Alovdan atlanmaq gərək,
Cəfaya qatlanmaq gərək.
Oddan aman olmaz,
Yaddan qanan olmaz.
Ağırlığım-uğurluğum odlara

Yazda mənlə hoppanmayan yadlara.

Dünya yaranandan insanlar bir-birinə yağı kəsilmiş, bir-birlərini öldürmüş, biri o birinin üzərində qələbə çalmağa can atmışdır. Balaca bir təkərləmədə bir neçə dəfə işlənən "yad" sözü hələ eramızdan çox-çox əvvəllər insanların, nəinki vəhşi heyvanlar üzərində qələbəyə can atdığını göstərir, eyni zamanda ulularımızın düşmənə qarşı mübarizəyə həmişə hazır olmalarını, bu mübarizəyə can atdıqlarını ifadə edir.

Beləliklə, Novruz bayramının yaranma tarixi atəşpərəstlik və islam dinlərinin yaranma tarixindən əvvəllərə gedib çıxır. Elə bu baxımdan da Novruz bayramında keçirilən hər bir mərasimin, ifa olunan nəğmələrin, rəqslərin öz mənası, öz məqsədi var. Bu nəğmələr, rəqslər rayon və şəhərlərimizdə müxtəlif şəkildə, bir-birindən fərqli olaraq ifa olunur.

Novruz bayramı günlərində uşaqlı-böyüklü hamı inama, etiqada görə təbiətin dəyişməsini gözləyir. Xalqın inamına görə bayram axşamı, gecə yarıdan keçəndə, sular təmizlənir, ağaclar başlarını aşağı salır. Təmizlənən bahar suyunda yuyunan insan xoşbəxt olar-deyib babalarımız. Səhər o başdan hər kəs qalxıb su üstünə qaçmış, biri o birindən irəli keçməyə tələsmiş, tərtəmiz, təzə bahar suyunda birinci yuyunmaq istəmişdir. İnsanlar dərdini, ağrısını oda atıb yandırdığı kimi, həm də suya verib, axıtmışlar. Hamı dəyişmiş, hamı təzələnmişdir bahar günlərində. Budur bahar bayramının gözəlliyi, müqəddəsliyi.

Yuxarıda qeyd etdiyimiz kimi, mart ayı bayramlar ayıdır. Onların hamısı sevimli və əzizdir. Ancaq bu bayramların içərisində Novruz xalqımıza daha doğma olması ilə seçilir. Yazın, baharın zümrüd libasına bürünmüş Novruzun gəlişini xalqımız həmişə xüsusi hazırlıqla qeyd edib. Novruza hələ bir ay qalmış, yəni, Kiçik Çillənin çıxması ilə el-obada hazırlıq görülər, bağ-bağçada təmizlik aparılar, həyət-baca səliqəyə salınar, xüsusilə də, kənd yerlərində xalça, palaz yuyular, ev-

eşik ağardılar. Bir sözlə, insanlar Novruzu təmtəraqla qarşılamağa çalışarlar.

Axır çərşənbədə rəngarəng Novruz şirniləri bişirilər, xonçalar bəzənər, yumurtalar rənglənər, evlərdə yazın rəmzi olan səmənilər göyərdilib səf-səg taxçalara düzülər.

Novruz süfrəsi xalqın ən ləziz milli yeməkləri ilə bəzənər. Süfrədə yeddi cür meyvə olar, ortada şam yandırılar. Yalnız Novruz şamları yandırıldıqdan sonra hamı deyə-gülə süfrə başında əyləşib, bayram xörəklərindən nuş edər. Bayram axşamı bacalardan torbalar sallanar, qapılara papaq atılar. Torbanı və papağı boş qaytarmaq olmaz. Qonum-qonşu qulaqlarını bir-birlərinin qapılarına dayayıb içəridən gələn səslərə qulaq asar, öz gələcək talelərini ordan eşitdikləri söz-söhbətlə müəyyənləşdirərlər. Novruz günlərində qohum-qardaş, dost-tanış ləziz nemətlərdən xonça bağlayıb bir-birlərinə qonaq gedərlər. Nişanlı qızla, nişanlı oğlana Novruz sovqatları göndərilər. Bu, adət qohumlar arasında dostluq və səmimiyyətin, doğmalıq və yaxınlığın rəmzi olar.

Keçmişdə Novruzun ilk dörd gününün bayram edilməsi ilin dörd fəsli ilə bağlı idi. Əgər birinci gün günəşli keçsəydi, deməli, yaz yaxşı keçəcəkdi. İkinci gün yağmurlu olsaydı, deməli, yay fəsli quraqlıq yox, yağışlı olacaqdı. Üçüncü və dördüncü günlər də digər fəsillərin necə keçəcəyindən xəbər verərdi. Əgər Novruzun son iki günü yağmurlu olsaydı, adamlar qodu düzəldib dəstə ilə meydanları gəzər və xorla günəşi səsləyən nəğmələr oxuyardılar:

Qoduya qaymaq gərək,
Qablara yaymaq gərək.
Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.

Bal verin ballamağa,
Yağ verin yağlamağa,
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

Novruz bayramı ilə əlaqədar şirin bayatılar, mahnılar və deyişmələrlə yanaşı, bir-birindən əlvan rəqslər, güləşlər, tutaşlar, dirədöymələr, çıdır yarışları kimi saysız-hesabsız əyləncələr də kəşf edilmişdi.

Novruz bayramını səmənisiz təsəvvür etmək imkan xaricindədir. O, Novruzun ilk müjdəsi, ilk qaranquşudur. Səməni ana təbiətin qış yuxusundan oyanıb canlanmasına, dağların öz bəyaz libasını soyunmasına, çöllərimizin yaşıllığa qərq olmasına, meşələrin və bağ-bağçaların yarpaqlamasına işarədir.

Səməni xalqımız arasında nəsilartırma rəmzi kimi də məlumdur. Bayram günlərində uşağı olmayan qadınlar yaşıl səmənini başlarında gəzdirərək: "Ay bunu göyərdən Tanrı, bu gəlini də göyərt, arzusunu kama yetir, mətləbinə, muradına çatdır..." deyərmişlər.

Dəbdəbədən çox təbiiliyi ilə seçilən Novruzun özünəməxsus xüsusiyyətləri də var. Novruzda üzərlik yandırıb tüstüsünü mal-qaraya, oğul-uşağa, ev-eşiyə verərlər ki, göz dəyməsin. Qorxanların başına su töküb qorxularını alarlar. Novruzda söyüş söyməz, qarğış etməz, qeybət qırmaz, dalaşmazlar. Atı, iti, ilanı vurmazlar. Mollaya getməz, dua yazdırmazlar. Xəstə yatanlara pay göndərərlər, qonum-qonşuya şirni paylayarlar.

Axır çərşənbədə evdən ələk, kibrit, neft, pul, un və çörək verməzlər. Ailə üzvlərinin sayına görə şam yandırarlar. Zahı üstünə getməzlər. Lampanı hələ qaranlıq düşməmiş yandırarlar. Su üstündən gün çıxmamış atlanarlar.

Bəli, əziz oxucu əminik ki, bu sadaladığımız Novruz adət-ənənələri, Novruz bayramı xalqımız yaşadıqca onun ən sevimli

milli bayramı da yaşayacaq, öz gözəlliyini və təravətini itirməyəcəkdir. Çünki Novruz günəşlə torpağın, təbiətlə insanın sədaqət və məhəbbət bayramıdır. Qoca təbiətin yenidən cavanlaşan çağıdır.

## Bölmə II
## Novruz, dirçəliş və sevgi bayramıdır

### Novruz bayramı ilə əlaqədar onlayn tədbirlərin keçirilməsi

Əslərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz təbiətin canlanması, torpağın oyanması bayramıdır. “Novruz” sözünün mənası yeni gün, təzə il deməkdir. Bu bayram sağlamlığın, fıravanlığın başlanğıcıdır. Novruz bayramı bizim mədəniyyətimizin əsas ünsürlərindən biridir, bizi bir millət olaraq fərqləndirən milli kimliyimizin ayrılmaz hissəsidir.

Respublikamızın hər bir dövlət müəssələrində: məktəb, kitabxana, muzey və s. pandemiya ilə əlaqədar tədbirlər onlayın şəkildə keçirilir. F. Köçərli adına Respublika Uşaq Kitabxanası da belə tədbirlərin il ərzində keçirilməsini günün nəbzinə uyğun planlaşdırmışdır. Elə bu baxımdan da, il ərzində keçirilən yubilyar şair və yazıçılarla görüşlər, tarixi və anım günlərimizin videoçarx və onlayn şəkildə keçirilməsi bunu deməyə əsas verir. Novruz bayramı ilə əlaqədar “Novruz gəldi, yaz gəldi” adlı onlayn şəkildə təşkil olunan tədbirlər planını sizə təqdim edirik.

İlk əvvəl F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodistləri tərəfindən tərtib edilmiş plana əsasən Novruz bayramının tarixi kökləri, Azərbaycan ədəbiyyatında Novruz adət-ənənələri ilə əlaqədar virtual sərgi təşkil olunur. Virtual sərgidə kitabxanamızın fondunda yer alan Novruz bayramı ilə əlaqədar kitablar, dövrü mətbuatda nəşr olunan qəzet və jurnal

materialları, “Bahar ətirli Novruz” adlı bukletlərin sərgisi nümayiş olunur. Oxucuların bu kitab və materiallarla yaxından tanış olması üçün aşağıda göstərilən link vasitəsindən istifadə edə bilərlər.


















https://drive.google.com/file/d/1WUK0mATaq5OZDkRcmlvkkvGQcusxpPbZ/view

https://drive.google.com/file/d/1_wPxoodmWDXkZdZhindEXFpYynHveBO7/view?usp=sharing

https://drive.google.com/file/d/1R17nqk3TTyTJmSVRiwGjbEDlUB10_8gT/view?usp=sharing

http://drive.google.com/file/d/1WYZMZLfR1IBSYoIBtpyzQ0TgJIhnjPT-/view

https://drive.google.com/file/d/11tjRaNMjJNB8yCiDXIVIBw21IS9qxZ0c/view?usp=sharing

Kitabxanamızda onlayn şəkildə təşkil olunan tədbirlərimizdən biri də videokonfransdır.

"Novruz gəldi, yaz gəldi" adlı videokonfransa iştirakçılar Zoom proqramı ilə qoşulurlar. Təşkil olunan videokonfransa ədəbiyyatşünaslar, folklorşünaslar, məktəb müəllimləri, şagirdlər, kitabxananın əməkdaşları və metodistləri qatılırlar. Tədbiri kitabxananın müdriyyəti açıq elan edir.

Əziz tədbir iştirakçıları tədbirimizi Ümumilli liderimiz Heydər Əliyevin Novruz bayramı haqqında söylədiyi kəlamla davam etdirmək istərdik.

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadiğar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı, ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir...

Novruz bizim ümumilli bayramımızdır. Mən hesab edirəm ki, indi artıq müstəqil Azərbaycan üçün bu bayramdan əziz bayram ola bilməz. Ona görə də bu, bizim xalqımızın hamısını eyni dərəcədə həm sevindirməlidir, həm həvəsləndirməlidir, həm də birləşdirməlidir".

Minilliklərdən gələn mübarək Novruz bayramı ilə əlaqədar F.Köçərli adına Respublika Kitabxanasının onlayn şəkildə təşkil etdiyi tədbirlərdən biri də oxucular arasında keçirilən viktorinadır. Novruz bayramı adət-ənənələrinin gənc nəslin yetişməsində, bu bayramların onların yaddaşlarında əbədi qalması üçün təşkil olunan bu viktorinaların, sual-cavab gecələrinin yeri əvəzolunmazdır. "Novruzum, təzə günüm" adlı viktorinanın suallarını sizlər üçün təqdim edirik.

1. Sual? Milli bayramımız olan Novruz bayramı YUNESKO tərəfindən neçənci ildə qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir?
   Cavab:2009-cu il sentyabrın 30-da Novruz bayramı YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" kimi qeyd edilmişdir.
2. Sual? İlk dəfə Bakıda keçirilən Novruz şənliyində Bahar qızı kim olub?
   Cavab: 1967-ci ildə Bakıda keçirilən Novruz şənliyində bahar qızı aktrisa Səfurə İbrahimova olub.
3. Sual? Novruz bayramında keçirilən oyunlardan hansının adını çəkə bilərsiniz?
   Cavab:Atırma, Halay, Bənövşə, Cıdır, Ənzəli, Kosa-Kosa
4. Sual? Novruz bayramının ilk mügdəçisi hansı quşdur?

Cavab: Qaranquş

5. Sual? Qədim inanclara görə kainat hansı dörd ünsürdən yaranıb?
   Cavab: Qədim inanclara görə kainat dörd ünsürdən-Su, Od, Külək, Torpaqdan yaranıb.
6. Sual? Novruzun əsas atributları hansılardır?
   Cavab: Novruzun atributları Keçəl, Kosa, Səmənidir.
7. Sual: Keçəl və Kosa nəyi tərənnüm edir?
   Cavab: Keçəl qışı, Kosa isə yazı tərənnüm edir.
8. Sual?Novruzun atributlarından olan Səməni nəyə işarədir?
   Cavab: Səməni bolluq, bərəkət rəmzidir.
9. Sual? Novruz bayramında yumurta boyamaq nəyə yozulur?
   Cavab: Yumurta həyatın canlılığını, dünyanın yaranışını özündə əks etdirir.
10. Sual? Yumartaların müxtəlif rənglərə boyanması nə ilə əlaqələndirilir?
    Cavab: Qırmızıya boyanmış yumurta özündə yayı təcəssüm etdirir.
    Sarıya boyanmış yumurta payız fəslini təcəssüm etdirir.
    Yaşıl-göy rənglərə boyanmış yumurta yayın simvoludur.
    Boyanmamış yumurta isə qışın rəmzidir.
11. Novruzda pişirilən şirniyyatların rəmzi mənasını bilirsinizmi?
    Cavab: Qoğal günəşin, şəkərbura ayın, paxlava isə alovun rəmzi sayılır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Novruz bayramı ilə əlaqədar təşkil etdiyi tədbirlərdən biri də oxucularla onlayn görüşdür. “Salam, Xonçalı, Səmənili Novruz” adlı onlayn görüşün keçirilməsi orta və yuxarı yaş qrup oxucular arasında nəzərdə tutulur. Keçirilən tədbirə məktəb şagirdləri,

müəllimlər, şair və yazıçılar, ədəbiyyatşünaslar, folklorşünaslar qoşula bilər. Kitabxanaçı tədbiri Xalq şairi Səməd Vurğunun şeir parşası ilə başlayır.

Bahar nə xoş gəlir, ruha dad verir.
Xəyala, duyğuya qol-qanad verir;
Var olsun şerimiz, şairlərimiz! –
Hər gülə, çiçəyə təzə ad verir.

Bahar hər yerdə bahardır və hər zaman insanlara sevinc gətirir, onların həyatını nurlandırır, yaşamaq, qurub-yaratmaq eşqini gücləndirir. Lakin təbiətin bu süslü, nazlı, min bir büsatlı çağının azərbaycanlılar üçün mənası, fərəhi və rəmzi xüsusilə böyükdür. Keçmişimizin bu günümüzə əvəzsiz ərməğanı, ulular yadigarı Novruz – mənəvi dünyamızın ayrılmaz tərkib hissəsi olan həmişəyaşar və həmişəcavan bayramımız məhz bu vaxt ərsəyə gəlir, qəlblərə sevinc, qollara qüvvət, həyata min bir rövnəq gətirir.

Bəli, ulu babalarımızın, ağbirçək nənələrimizin sevinci, fərəhi, bütün gələcək nəsillərə xeyir-duasıdır. Novruz həyatın dirçəlişi, oyanışı, xalqımızın dost güldürən, yağı öldürən gücü, qüdrət, yaşamaq rəmzidir. Xalqımız özünün ən yüksək mənəvi, əxlaqi keyfiyyətlərini bu bayramla bağlı adət-ənənə və mərasimlərdə əks etdirmişdir.

Novruz ta qədimdən dostluğa, xoşbəxtliyə, bolluğa, firavanlığa, əməyə, xoş əhval-ruhiyyəyə və birgə yaşayışa çağırış bayramı olmuşdur.

Dəbdəbələrdən uzaq, təbiilik və səmimiliklə mayalanan Novruz Azərbaycan övladlarını torpağı sevməyə, əzizləməyə, ondan daha bol nemət götürməyə çağıran əsl xalq bayramıdır.

Novruz günlərində Azərbaycanımızın hər zonası, hər rayonu, hər kəndi minbir naxışlı xalçaya bənzər bu mərasimə dürlü-dürlü bəzək ilməsi vurur.

Azərbaycanda Novruz bayramı, onun humanist və nikbin mahiyyəti, təbii olaraq, xalqımızın tarixən keçdiyi həyat yolunun xüsusiyyətləri, el-obamızın, yurdumuzun coğrafi şəraiti, büllur, dağ suyu kimi təmiz mənəvi keyfiyyətləri ilə bilavasitə bağlıdır. Odur ki, Novruzun həyat, sağlamlıq, təmizlik, əmək vərdişləri ilə bağlı bir çox ayin, etiqad və mərasimlərinin keçirilməsi və psixoloji aləmi, əxlaqi, dünya görüşləri mühüm rol oynamışdır. Xalqımızın çoxəsirlik tarixinin uğurlu yolçusu olan, onunla birlikdə inkişaf edən, qoşa qarıyan Novruz ulu babalarımızın həyat mübarizəsinin, yaşarlılığının təsdiqi və təntənəsidir. Və ən maraqlı cəhət də budur ki, bu bayram öz nurunu, tərzini, çalarını heç zaman itirməmişdir. Əsrlər bir-birini əvəz etmiş, Novruz isə dəyişməmiş, öz simasını, mahiyyətini, təravətini olduğu kimi saxlamışdır.

Azərbaycanda bahar bayramının məzmunu, mahiyyəti dünyanın bir sıra alimlərində böyük maraq oyatmışdır. 354 il əvvəl Şamaxıda yeni ilin başlanması mərasimində iştirak etmiş alman səyyahı Adam Oleari yazmışdır: “Astroloq tez-tez stolun arxasına keçir, öz cihazı ilə günəşi müşahidə edir, saata baxır, beləliklə, günəşin gecə və gündüzün bərabərlik nöqtəsinə çatdığı anı gözləyirdi. Elə ki, arzu olunan dəqiqə çatdı, o, uca səslə elan etdi: Yeni il gəldi, təzə il başlandı. Dərhal yaylım atəşi açıldı. Şəhərin qala divarları və bürclərindən qara zurna səsləndi, təbillər çalındı və beləliklə, böyük el şənliyi başlandı”.

Novruz yazın gəlişini yeni əmək mövsümünün başlanmasını vəsf edən böyük el bayramıdır. Bu gün o taylı-bu taylı Azərbaycanla yanaşı Orta Asiya, Əfqanıstan, Pakistan, İran, Türkiyə və digər ölkələrdə yaşayan yüz milyonlarla insan Novruzu özünün ən əziz bayramı kimi qeyd edir.

Xoş qədəmli, gənclik həvəsli, nikbin ovqatlı bayramımızın məna dolu məzmunundan incilər əxz etməli, əməlimizdə, arzumuzda yaşatmalıyıq.

Atalar deyiblər: Novruzda gülən il boyu gülər. Novruz alqışı sayalı olar.

Salam, xonçalı, səmənili Bahar qız! Qədəmin mübarək, Novruz!

Onlayn görüş musiqisi Rəşid Şəfəqin, sözləri Zahid Xəlilin olan "Novruz gəlib, yaz gəlib" adlı musiqi ilə yekunlaşır.

Xalqımızın qədim el mərasimlərindən biri Novruz bayramı ilə əlaqədar olaraq keçirilən onlayn tədbirlərdən biri də kitab müzakirəsidir. Tədbirdə Novruz bayramının bu günə qədər yaşadılan, qorunub bizlərə çatdırılan, nəsillərdə gələcəyə və xoşbəxtliyə böyük inam oyadan bir çox bu kimi məzmunlu kitablardan danışmaq olar. Lakin biz bu tədbirdə "Novruz bayramı Ensiklopediyası" adlı kitabın oxucularla onlayn müzakirəsini keçirmək istəyirik. Kitab 2008-ci ildə "Şərq-Qərb nəşriyyatı tərəfindən çap olunub. Kitabı tərtib edənlər, Bəhlul Abdulla, Tofiq Babayevdir. Kitabın elmi redaktoru, Məhərrəm Qasımlıdır. İlk dəfə çap olunan "Novruz bayramı ensiklopediyası"nda təbiətin oyanması, canlanması, bununla da yaz fəslinin başlanması münasibəti ilə Azərbaycan xalqı tərəfindən qeyd olunan Novruz bayramının mahiyyəti, tarixi kökləri, əski qaynaqlarda yeri, bayramla bağlı adət-ənənələr, ayin-mərasimlər, oyun-tamaşalar, xalqımızın minilliklər boyu təcrübə əsasında formalaşmış iqtisadi həyatı, el sənətinin inkişaf yolları, mütəxəssislərin söylədikləri fikirlər, şifahi xalq ədəbiyyatından, eləcə də bədii yaradıcılıq müəlliflərinin əsərlərindən örnəklər daxil edilmişdir.

Kitabda olan Azərbaycanın xalq şairi Səməd Vurğunun poemalarından bir parçanı nəzərinizə çatdırmaq istərdik:

Axır çərşənbədir...il tamam olur,
Bu il kənd içində danışır hamı

At üstə gəlmişdir Novruz bayramı
Qulunlu at üstə...Bu bir muraddır.
Qocalar deyir ki, bolluq keçəcək,
Torpaq su yerinə şərbət içəcək,
Odur ki, hamının ürəyi şaddır,
Hamının arzusu, ümidi gülür,
Üzündən, gözündən nurlar tökülür.

Müzakirəsini keçirdiyimiz "Novruz bayramı ensiklopediyası" adlı kitabda yuxarıda qeyd etdiyimiz kimi xalq yardıcılığından nümunələr, Aşıq şeirindən nümunələr, klassiklərimizin şeir və poemaları, Ümummilli lider Heydər Əliyevin Novruz bayramı haqqında söylədiyi görkəmli kəlamlar, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki, Novruz bayatıları və s. nümunələr verilmişdir. Kitabda Novruz bayramının sayılan adətlərindən biri qurşaqsallama və yaxud papaqatma kimi adətlərindən bəhs edən təsvirlərdə verilmişdir. Beləki, qurşaqsallama adətinin bir xususiyyəti ən yaxşı şəkildə M.Şəhriyarın "Heydərbabaya salam" əsərində də təsvir olunub:

Bayramıdı, gecə quşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu.
Hər kəs şalın bir bacadan soxurdu.
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.
Şal istədim mən də evdə, ağladım.
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaçdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

Bəli, əziz tədbir iştirakçıları kitabda qeyd olunduğu kimi, Novruz bayramı hər hansı dini görüşə, ideoloji istəklərə əyilməyən, xalqımızın böyük ehtiramla qeyd etdiyi təsərrüfat

məzmunlu yaz bayramıdır. Məsələnin məhz bu mahiyyətini dəyərləndirən, Novruz bayramının xalqımızın mənəvi varlığında güclü rolunu yüksək qiymətləndirən böyük dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir".

Tədbirimizi kitabda yer almış şair Abbas Səhətin "Yaz" şeirindən bir parça ilə yekunlaşdırmaq istərdik. Şeirdə təbiətin oyanması, Novruzun gəlişi tərənnüm olunur.

O gün ki, fəsli yaz olar,
Gecə, gündüz taraz olar.
Havanın artar istisi,
Daha soyuqlar az olar.
Ərir dağın, çölün qarı,
Axar dərələrə sarı.
Gurultu ilə sel gələr,
Salar sədaya çayları.
Qaranquş ol zaman gələr,
Yenə tikər yuvasını.
Qonar yaşıl ağaclara,
Oxur gözəl havasını.

Novruz bayramı ilə əlaqədar respublikamızın hər bir yerində onlayn tədbirlərin keçirilməsi davam edir. Beləki, F. Köçərli adına Respublika Uşaq Kitabxanasında bayramla bağlı keçirilən tədbirlərdən biri də "Novruz naxışları" adlı virtual rəsm və əl işlərinin sərgisidir. Virtual rəsm və əl işlərinin sərgisi orta məktəb şagirdləri arasında keçirilir. Tədbirə onlayn şəkildə

məktəbin şagird və müəllim heyəti, Azərbaycan Rəssamlar İttifaqının fəxri qonaqları, valideynlər qoşula bilər. Tədbirdə Novruz bayramının atributları, Keçəl, Kosa, Səməni, yazın ilk müjdəçisi qaranquşu ideya və bacarıq baxımından öz rəsmində əks etdirən şagirdlərin rəsmləri nümayiş olunur. Yaxşı rəsm çəkmək bacarığı, yaxşı əl qbiliyyəti olan şagirdlər tədbirin sonunda mükafatlandırılır.














“Yurdumuza Novruz gəlir” adlı nağıl saatı F. Köçərli adına Respublika Uşaq kitabxanasının kiçik yaşlı oxucuları arasında onlayn şəkildə keçirilir. Metodist uşaqları salamlayır: Əziz uşaqlar, elə ki, bahar gəldi, günlər yavaş-yavaş qızmağa başlayır. Bilirsən ki, qarın, boranın daha qorxusu yoxdur. Bunu yalnız insanlar yox, bütün təbiət, bütün canlılar bilirlər. Torpağın altında hər nə var üzə çıxır. Bir də görürsən ki, bircə günün içində hər yan yamyaşıl oldu. Düzənləri, yamacları gül-çiçək bürüdü. Kol dibindən utancaq-utancaq bənövşələr boylandı. Sarı donlu nərgizlərin rahiyəsi meşələri, bağ-bağçaları bürüdü. Elə ki, bahar gəldi, meyvə ağacları da bəzənib-düzənirlər. Baxırsan ki, hamısı çiçək içərisindədir. Alça, şaftalı, ərik, badam, alma, armud və s. Onların cürbəcür, rəngli çiçəklərinə baxdıqca adamın xoşu gəlir. Ağ, çəhrayı çiçəklər adamın gözünü, könlünü oxşayır.

Təbiətin bu axar-baxarlı çağında quşların da cəh-cəhindən olmaz. Baharın orta ayının gözəlliyindən cuşa gəlib elə oxuyurlar ki, deyirsən heç vaxt belə ilhamla, həvəslə oxumayıblar.

Bəs çayların, budaqların nəğməsi. Hələ zəhmətkeş arıların səsi. Güldən-gülə, çiçəkdən-çiçəyə qona-qona onlar zəhmət mahnısı oxuyurlar. Elə bil deyirlər: cəfa çəkməsən, səfa sürməzsən.

Bütün bunların mərkəzində isə, əziz uşaqlar bildiyiniz insan durur. Dəyanətli, cəsarətli, qüdrətli insan. Öz qadir əməyilə əsil gözəlliyi o yaradır. Ona görə də insan adı, onun əməyi hər bir şeydən uca tutulur.

Müəllif: Gülşən Orucova

Əziz uşaqlar gəlin sizə rəvayət olunmuş Novruzun yaranma əfsanələrindən danışım.

Ulu tanrı dünyanı gecə ilə gündüzün bərabər olduğu Novruzda yaratmışdır.

İnsanlığın atası sayılan Həzrəti Adəmin xamırı Novruzda yoğrulmuşdur.
Həzrəti Adəmlə Həvva nənəmizin şeytana uyma qəbahətlərini ulu tanrı Novruzda bağışlamışdır.
Nuhun gəmisi Ağrı dağına çatandan bir müddət sonra peyğəmbər göylərin o uca dağ qatından bir qarğanı xəbər gətirməyə göndərmiş, quş geri dönməmişdir. Bunun arxasınca Nuh, göyərçin yollamış. Göyərçin qayıdarkən dimdiyində bir yaşıl budaq varmış. Deməli, su çəkilmiş, torpaq qurumuş və bahar gəlmişdir. Bu müjdədən sonra Nuh Ağrı dağından Sürməli çüxuruna enmişdir. Nuhun yerə ayaq basdığı gün Novruza təsadüf edibmiş.
Musa peyğəmbərin çəliyi ilə Qırmızı dənizi yararaq tərəfdarlarını qurtardığı gün də Novruz günüymüş.
https://www.youtube.com/watch?v=lrrVcCU0eYs

Əziz uşaqlar nağıl saatımızı M.Ə.Sabirin "Gəl, gəl, a yaz günləri" şeir parçası ilə tamamlayırıq. Şeirdən sonra uşaqlar Novruz haqqında bayatılar, tapmacalar söyləyirlər.

Gəl, Gəl a yaz günləri!
İlin əziz günləri!
Dağda ərit qarları,
Bağda ərit qarları.
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək.

**Novruz bayatıları**

Ordan axan arxdımı,
Üzündə duvaqdımı?
Novruz gəlib yetişdi
Ayrı duran vaxtdımı?!

Çərşənbə çay içində,
Ox atdım yay içində.
Tanrı muradım versin
Bu gələn ay içində.

Çərşənbənin bəndi var,
Yetmiş yeddi fəndi var.
Hansı qapıdan girsən,
Noğulu var, qəndi var.

Bu şeirdi, qəzəldi;
Solub düşən xəzəldi.
Çərşənbələrin ilki
Yalançıdı, Əzəldi.

Pərdə aldım, tül oldu,
Taxılım sünbül oldu.
İkinci çərşənbənin
Eldə adı "Kül oldu".

Əzizim, bülbüləm mən,
Boy atmış sünbüləm mən,
Çərşənbələr içində
Üçüncüyəm, Güləm mən.

Sürü deyil, naxırdı,
Qazan dibi paxırdı.
Sonuncu çərşənbənin,
Öz adı İlaxırdı.

Çətin yollar yaran quş,
Sığallanıb daran quş.
Baharın müjdəçisi
Şanapipik, qaranquş.

Varı qoyun-quzudu,
Çörəyidi, duzudu.
Təbiətin bayramı
Bahar, yaz Novruzudu.

Bahar yağışı

Yağ ey bahar yağışı!
Bənövşə-sancaq başı,
Yarpaq-puçur bələkdə...
Yaz havası oxuyur
Əsən ılıq külək də.

Torpaqda yatdı qışı,
Yaz gəldi, dən cücərdi.
Tarlaların üstünə
Yaşıl bir xalı sərdi.

Ot-torpağı naxışı,
Yatdı payızı, qışı.
Göyərdi yaz gələndə,
Quzular mələşəndə.

Əsdi ılıq yaz yeli,
Oyandı novruzgülü
Çiçəklərin incəsi,
Deşdi qarı qönçəsi.

Bir quş bizi salamlar:
Gəldim, gəldi ilk bahar!
Tapın bu hansı quşdur,
Harda yuva qurmuşdur?

**Tapmacalar**

Kəmərim qırmızı,

Yaşıl köynəyəm.

Novruz bayramında,

Hər bir evdəyəm.

*(Səməni)*

Harayçıyam, hayçıyam,

Bahar sözlü payçıyam,

Sinəm ağ, belim qara

Quyruqdan da qayçıyam.

*(Qaranquş)*

Qab-qacağım, yarağım,

Başımda da darağım.

Uzaq yerlerden uçub,

Mən özümü yetirrəm.

Baharın xəbərini,

Elə müjdə gətirrem.

*(Şanapipik)*

Alov deyil, fanaram,
Ayı, günü sanaram.
Novruzun xonçasında,
Hər bir ada yanaram.

*(Şam)*

Özüm isti, rəngim al,
Ağrı-dərdi məndə sal.

*(Tonqal)*

Qapısız günbəzəm,
Üzüm ağ, içim sarı.
Novruzda bəzənərəm,
Qırmızı, yaşıl, sarı.

*(Yumurta)*

Papağı qara,
Köynəyi ağdı.
Novruz süfrəsində,
Təpədi, dağdı.

*(Plov)*

Ağızı bağlı, bizə tanış,
Ayparadı, üstü naxış.

*(Şəkərbura)*

Dəyirmi, tağalağam,
Qat-qat paltar geyərəm.

*(Qoğal)*

Yayma, baca,
Barmaqladım,
Atdım saca.

*(Fəsəli)*

Taxta təndir gələr xoşa,
Çörəyi bişirər qoşa.

*(Qoz)*

Hər yanı taxta,
Yumru bəy otaqda.

*(Fındıq)*

Atılır, düşür, oynayır,
Sacda qırmızı boyanır.

*(Qovurğa)*

Ağ qəsirin içində Köynəyi yaşıl yatıb.

*(Püstə)*

Bu bayramda hər il məclis düzəldən,
Əl çəkmərəm sənin kimi gözəldən!
Süfrələrin bəzəyisən əzəldən:
Yaraşıqsan otaqlara səməni!
Bizim ellər oxuyur bu nəğməni:
Səməni, ay səməni!
Saxla məni!
Düzərəm dörd yanına
Nərgizi, yasəməni.
Səməni, ay səməni!
Saxla məni!

Məmməd Aslan

Bizi bahara qovuşduran bayram, Novruz! Gəlişin uğurlu olsun, ey bahar! Gəlişinlə elimizə bolluq, bərəkət gətir. Qədəmlərin mübarək olsun!

https://www.youtube.com/watch?v=uRv6umzPQtY

## Ədəbiyyat siyahısı

### *Kitablar*

**Ağırlığım, uğurluğum odlara** : Nağıl. - Bakı : Gənclik, 1996. - 38 s. : il.

**Elxan E. M.** Gün çıx,çıx,çıx. - Bakı : Nurlan, 2009. - 72 s. : il.

**Əmiraslanov T.** Novruz süfrəsi. - Bakı, 2010. - 80 s. : rəngli foto, rəngli il.

**Göyər, səmənim, göyər**. - Bakı : Xəzər, 2009. - 160 s. : rəngli il.

**Mirzə A.** Novruz töhvələri. - Bakı : Xəzər, 2009. - 152 s.

**Nəbiyev A.** Azərbaycanda Novruz. - Bakı : Çıraq, 2012. - 272 s.

**Novruz bayramı ensiklopediyası** : Xalq bayramı. - Bakı : Şərq-Qərb, 2008. - 208 s. : rəngli foto. - (Lüğət və Ensiklopediyalar).

**Novruz: Azərbaycan xalq** bayramı : Bələdçi kitab. - Bakı : Təhsil, 2011. - 208 s.

**Sarabski H.** Köhnə Bakı. - Bakı : Şərq-Qərb, 2006. - 144 s. : il. - (Müasir Azərbaycan ədəbiyyatı).

### *Dövri mətbuatda*

**Bəşirqızı Z.** Bu gün İlaxır çərşənbədir // Xalq qəzeti. - 2020. - 17 mart. - № 59. - S. 5.

**Bu gün İlaxır** çərşənbədir // Savalan. - 2019. - 19-31 mart. - № 11. - S. 1.

**Bünyadzadə K.** Dörd ünsürdən biri: Hava // Respublika. - 2019. - 12 mart. - № 57. - S. 5.

**Elxan E. M.** Hava çərşənbəsi // Respublika. - 2019. - 12 mart. - № 57. - S. 5.

**Ədiloğlu N.** Qarabağlı illərin Novruz ovqatı : bayram küsülü sevməz // İki sahil. - 2020. - 18 mart. - № 52. - S. 14.

**Əlixanlı V.** Qırx sətir : novruz - həmişəcavandı... // Qobustan. - 2020. - № 1. - S. 4.

**Əliyeva S.** El tamaşaları: Xanbəzəmə // Qobustan. - 2019. - № 1. - S. 14-15.

**Fəhmi İ. Novruz**: milli ənənələr, kütləvi mərasimlər // Mədəniyyət. - 2020. - 19 mart. - № 21/22. - S. 5.

**Fərəcova Z.** Novruzgülünün açdığı ay // Azərbaycan. - 2020. - 20 fevral. - № 38. - S. 11.

**Fərəcova Z.** Su çərşənbəsi : novruz çərşənbələri // Azərbaycan. - 2020. - 25 fevral. - № 42. - S. 5.

**Fərəcova Z.** Torpaq çərşənbəsi // Azərbaycan. - 2020. - 17 mart. - № 59. - S. 7.

**Həmidə.** Novruzun sənət xonçası // Mədəniyyət. - 2019. - 15 mart. - № 21. - S. 5.

**Həmidə.** Novruz bayramı təranələri // Mədəniyyət. - 2019. - 18-23 mart. - № 22. - S. 7.

**İsmayılqızı X.** Səmənili, xonçalı, gur tonqallı çərşənbələrimiz : Novruzun müjdəçiləri // İki sahil. - 2020. - 17 mart. - № 51. - S. 13.

**Qasımlı M.** Od-ocaq və atəş qavramının tarix içindəki yeri və dəyəri // Ədəbiyyat qəzeti. - 2019. - 16 mart. - **№ 10**. - S. 20.

**Muradlı X.** Təbiətin yaz coşqusu // Azərbaycan. - 2020. - 15 mart. - № 58. - S. 7.

**Nəbiyeva A.** Torpaq çərşənbəsi // Respublika. - 2020. - 17

mart. - № 59. - S. 6.

**Nəbiyeva A.** Qarabağda Novruz bayramı // Azərbaycan. - 2019. - 12 mart. - **№ 57**. - S. 7.
**Novruz elçiliyi** : əkin ayı // Azərbaycan. - 2020. - 17 mart. - № 59. - S. 7.

**Novruz gəlir, yaz** gəlir... // Palitra. - 2020. - 28 fevral. - № 22. - S. 16.

**Novruzu dünya qoruyur** // Azərbaycan. - 2020. - 15 mart. - № 58. - S. 7.

**Orucova S.** Külək oyadan çərşənbə // Azərbaycan. - 2019. - 12 mart. - № 57. - S. 7.
**Orucova S.** Torpaq çərşənbəsi // Azərbaycan. - 2019. - 19 mart. - № 63. - S. 7.
**Süleymanlı M.** Su, Torpaq, Od, Hava... // Qobustan. - 2019. - № 1. - S. 8-11.

**Talıblı T.** Novruz çərşənbələri // Qobustan. - 2019. - № 1. - S. 12-13.

**Təbiətin ilıq nəfəsi** - Od çərşənbəsi // Mədəniyyət. - 2020. - 4 mart. - № 17. - S. 1.

**Türk xalqlarının ortaq** bayram inancları // Azərbaycan. - 2020. - 15 mart. - № 58. - S. 7.

**Zümrüd.** Xalqımızın soykökünə bağlı olan adət-ənənələrimiz yaşayır // Səs. - 2020. - 7 mart. - № 46. - S. 11.

# Novruz gəldi, yaz gəldi

(metodik vəsait)

**Komputer yığımı
və dizayn:**

**Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

`